HEQT

HÜQUQİ EKSPERTİZA VƏ QANUNVERİCİLİK TƏŞƏBBÜSLƏRİ MƏRKƏZİ

# İLLİK HESABAT 2023

**Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi (HEQT Mərkəzi) publik hüquqi şəxs Azərbaycan Respublikası (AR) Prezidentinin 2022-ci il 19 may tarixli 1685 nömrəli Fərmanı ilə yaradılıb.**

HEQT Mərkəzi 2023-cü ildə Nizamnaməsinə müvafiq olaraq normayaratma fəaliyyətinin keyfiyyətinin yüksəldilməsi, dövlət orqanları (qurumları) əməkdaşlarının hüquq normalarının tətbiqi sahəsində bilik, bacarıq və səriştələrinin inkişaf etdirilməsi, hüquqi maarifləndirmə, hüquqi ekspertizanın aparılması və bunlarla bağlı işlərin səmərəli əlaqələndirilməsi sahəsində fəaliyyətini uğurla davam etdirmişdir.





## HEQT MƏRKƏZİNİN FƏALİYYƏTİNİN TƏŞKİLİ

- İcraçı direktorun müavini vakansiyasının, habelə HEQT Mərkəzinin şöbələrində mövcud olan vakant vəzifələrin komplektləşdirilməsi həyata keçirilib
- İşçilərin say həddi **5 vahid** artırılıb
- HEQT Mərkəzi yeni ofis mebelləri və digər zəruri əşyalarla təchiz edilməklə yeni ofisə köçüb
- HEQT Mərkəzində elektron sənəd dövriyyəsi sisteminin təşkili üzrə ilkin tədbirlər görülüb
- İnternet sayt **(www.heqt.gov.az)** yaradılıb və sosial şəbəkə hesabları açılıb

## APARILMIŞ HÜQUQİ EKSPERTİZALAR

- **175 qanun** layihəsi
- **57 fərman** layihəsi
- **7** Nazirlər Kabinetinin **qərar** layihəsi

## HAZIRLANMIŞ HÜQUQİ AKTLAR

- **22 qanun** layihəsi (44 qanuna dəyişiklik nəzərdə tutan)
- **18 fərman** layihəsi (41 fərmana dəyişiklik nəzərdə tutan)
- **1** Nazirlər Kabinetinin **qərar** layihəsi (Nazirlər Kabinetinin qərarı ilə təsdiqlənməsi nəzərdə tutulan 3 publik hüquqi şəxsin nizamnaməsi)

## HÜQUQİ ARAYIŞLAR VƏ RƏYLƏR

- AR Prezidentinin Administrasiyasından daxil olmuş sorğu və müraciətlər üzrə **3 hüquqi rəy**
- Konstitutisya Məhkəməsinin sorğuları üzrə **6 hüquqi rəy**
- Müxtəlif dövlət orqanlarının (qurumlarının) müraciəti üzrə **2 hüquqi rəy**
- Müxtəlif qanun lahiyələri və hüquqi məsələlərlə bağlı xarici təcrübəyə əsaslanan **4 hüquqi arayış**

## QANUNVERİCİLİK TƏŞƏBBÜSLƏRİ FƏALİYYƏTİ

- Konstitusiya Məhkəməsinin qərarlarından irəli gələn tövsiyələrin implementasiyası ilə bağlı təkliflər hazırlanıb
- Qabaqcıl beynəlxalq təcrübə və konvensiyaların tələbləri nəzərə alınmaqla qanunvericiliyin inkişaf etdirilməsinə dair təkliflər verilib
- AR Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyanın tərkibində "AR Mülki Məcəlləsinin təkmilləşdirilməsi üzrə" işçi qrup yaradılıb

Az 1022, Bakı şəhəri, Nəsimi rayonu, Mərdanov qardaşları 117C, Ritz Plaza, 7-ci mərtəbə

office@heqt.gov.az

www.heqt.gov.az

## HEQT Mərkəzinin hüquqi ekspertiza sahəsində xidmət göstərdiyi dövlət qurumlarının bəziləri:

- AR Nazirlər Kabineti
- AR Diasporla İş üzrə Dövlət Komitəsi
- AR Mərkəzi  Bankı
- AR Maliyyə Nazirliyi
- AR Kiçik və Orta Biznesin İnkişafı Agentliyi
- Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC və s.

## HEQT Mərkəzinin fəaliyyət istiqamətlərindən irəli gələrək hazırlanmış sənədlər:

- Normativ hüquqi aktın qəbul edilməsi zərurətinin əsaslandırılması sənədinin tərtib edilməsi Qaydaları
- Elmi-praktiki kommentariyalarının hazırlanmasına dair Təlimat
- "Publik hüquqi şəxslər haqqında" AR Qanununun ilkin kommentariyası
- İnsan hüquqları ekspertizası Qaydalarının ilkin layihəsi

## HEQT Mərkəzinin əməkdaşlarının bilik və bacarıqlarının təkmilləşdirilməsi üzrə görülmüş tədbirlər:

- “İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında” Konvensiyanın 3, 5 və 6-cı maddələrinə dair” təlimdə iştirak
- TAIEX – Çərçivəsində “Normayaratma qurumlarının təşkilati strukturu və idarə edilməsi” mövzusunda beynəlxalq ekspert missiyasının təlimində iştirak
- Koreya Beynəlxalq Əməkdaşlıq Agentliyi (KOICA) tərəfindən təşkil olunmuş “Rəqabət hüququ və bazar iqtisadiyyatının inkişafı” mövzusunda keçirilən təlimdə iştirak
- Normayaratma fəaliyyəti sahəsində bilik və bacarıqlarının təkmilləşdirilməsi məqsədilə HEQT Mərkəzinin 5 əməkdaşının AR Prezidentinin Administrasiyasına ezam olunması




## Hüquqi tərcümə işinin təşkili üzrə:

Aşağıdakı sənədlərin tərcüməsi təmin olunmuşdur:

- HEQT Mərkəzinin Nizamnaməsi (İngilis və rus dilinə)
- "Normativ hüquqi aktlar haqqında” AR Konstitusiya Qanunu (İngilis dilinə);
- Publik hüquqi şəxslər haqqında” AR Qanunu (İngilis dilinə)
- "Xarici arbitraj qərarlarının tanınması və icrası haqqında" 1958-ci il 10 iyun tarixli Nyu-York Konvensiyası (Azərbaycan dilinə)

## TƏLİMLƏR VƏ TƏDBİRLƏR

- HEQT Mərkəzi tərəfindən dövlət qurumlarının hüquq sahəsində fəaliyyət göstərən əməkdaşlarına hüquqi marifləndirmə, həmçinin normayaratma fəailyyəti  və hüquq normalarının  tətbiqi sahəsində ümumilikdə **130** nümayəndənin iştirakı ilə **10 təlim**
- HEQT Mərkəzinin tapşırığına əsasən Hüquq və İnsan Haqları İnstitutu tərəfindən dövlət qurumlarının əməkdaşları üçün Avropa İnsan Haqları Məhkəməsinin presedentlərinin tətbiq edilməsinə dair **35 təlim**
- “Ümumilli Lider Heydər Əliyevin apardığı hüquq islahatları və onların əhəmiyyəti” mövzusunda **elmi-praktiki konfrans** (3 noyabr)
- “Qloballaşan dünyada  insan hüquq və azadlıqlarının  təminatı və müdafiəsinə yeni yanaşmalar” mövzusunda **elmi-praktiki konfrans** (13 dekabr)




## HEQT MƏRKƏZİNƏ DAXİL OLAN MÜRACİƏTLƏR ÜZRƏ İŞ

HEQT Mərkəzinə dövlət qurumlarından və vətəndaşlardan   **136 müraciət,** ümumilikdə isə **314 sənəd** daxil olub

Mərkəzin saytı
www.heqt.gov.az

e-mail ünvanı
office@heqt.gov.az

facebook
fb.com/heqt.merkezi